**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**QULİYEV AZAY ƏJDƏR OĞLU**

# QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ İCTİMAİ-SİYASİ SİSTEMDƏ YERİ: MİLLİ VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**İxtisas: 5904.01 – "Siyasi institutlar və sistemlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

**İş Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor **A.N.ABBASBƏYLİ**

**Rəsmi opponentlər:** fəlsəfə elmləri doktoru, professor **İ.R.Məmmədzadə**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **H.B.Məmmədov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət İqtisad Universitetinin "Politologiya" kafedrası.

Müdafiə "__27__" _12_ 2013-cü il tarixdə saat____da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəh, M. Lermontov küç. 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"_______ 2013-cü il tarixində göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının**
**Elmi katibi, f.ü.f.d, dosent** **S. İ. Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı**: Müasir cəmiyyətin ictimai-siyasi inkişaf dinamikasında demokratik təsisatların mühüm rolu və yeri vardır. Demokratik cəmiyyətdə fərdlərin könüllü şəkildə bir araya gəlib, onları əhatə edən prorblemlərin, çeşidli məsələlərin həllində əməkdaşlıq etməsi tarixi bir keçmişə malikdir. Bu problem ictimai-siyasi fikir tarixində ta qədim dövrlərdən başlayaraq mütəfəkkirlərin də hər zaman diqqətində olmuşdur. Demokratik institutlaşma, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruluculuğu müstəqil dövlətçiliyin də suverenlik rəmzidir.Bu məsələdə isə Müstəqil Azərbaycanın tutduğu yol, ideya-siyasi xətt – demokratiya yoludur. Ümummilli Lider Heydər Əliyevin təkidlə qeyd etdiyi kimi, "Respublikamızda dövlət quruculuğu demokratiya prinsipləri əsasında gedir. Ölkəmizdə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurulur".[1]

Nəzərə alaq ki, son onilliklərdə, xüsusilə, totalitar və qapalı xarakter daşıyan SSRİ-nin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra vətəndaş cəmiyyəti institutlarının təşəkkül tapması, bu mövzunu elmi tədqiqatlarda da aktual məsələlərdən birinə çevirdi. Bu baxımdan problemin siyasi elmlər müstəvisində yeni ədəbiyyatlara əsasən öyrənilməsi müasir politologiya elmində də zəruridir.

Modernləşən Azərbaycanın müasir ictimai-siyasi həyatı Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən demokratik təsisatların, ictimai institutların formalaşması siyasəti ilə səciyyələnir. Azərbaycan Respublikasının Konstitusiyasının «Birləşmək hüququ» adlanan 58-ci maddəsinin II bəndində yazıldığı kimi: «Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir».[2] Bu amildən faydalanan QHT-lər ölkədə gedən demokratikləşmə prosesinin və ictimai-siyasi sistemin ən aktiv tərkib hissəsinə çevrilmişlər. Azərbaycanda QHT-lərin fəaliyyətini nizamlayan və onların inkişafını tənzimləyən mükəmməl qanunvericilik bazası yaradılmışdır. "Biz Azərbaycanda siyasi və iqtisadi islahatlar siyasətini yürüdürük. Bunları paralel şəkildə həyata keçirməyə çalışırıq. Bu sahədə inkişafa nail olmuşuq. On ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Biz üzərimizə siyasi transformasiyaya dair bir sıra öhdəliklər götürmüşük. ...İndi ölkədə siyasi təsisatlar, demokratik azadlıqlar - ifadə azadlığı,

[1]Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar,nitqlər, bəyanatlar, məktublar, müsahibələr. c.8."Azərnəşr". Bakı, 1998. səh.388.

[2] Azərbaycan Respublikasının Konstitusiyası (Yeni redaksiyada) Bakl, Qanun, 2009, s.20



sərbəst toplaşma azadlığı, mətbuat azadlığı mövcuddur. Düşünürəm ki, bu, xalqımızın inkişafı üçün mühüm rol oynayıb."[1]. Məhz bu nöqteyi nəzərdən də problemin müstəqil Azərbaycan qanunvericiliyi, rəsmi dövlət sənədləri və yeni mənbələrə əsasən siyasi təhlili vacib aktuallığa malikdir.

Tədqiq olunan mövzunun aktuallığını şərtləndirən amillərdən biri Azərbaycan siyasi elmi çərçivəsində vətəndaş cəmiyyətinin vacib tərkib hissəsi olan QHT-lərin inkişaf dinamikasının araşdırılmasının xüsusi əhəmiyyət daşımasıdır.

İnsan onu əhatə edən problemlərin, qarşısına çıxan məsələlərin həllində fəal iştirakçı olmalıdırmı? Yoxsa bu məsələlərdə passiv mövqe nümayiş etdirib, onlara biganə yanaşmalı, bu işləri kimlərinsə həll edəcəyini düşünməlidir? Aleksis de Tokvilin qeyd etdiyi kimi: "...insanlar azad təsisatlarda ideyalarının qavranılmasına ən təbii surətdə meyillidirlər".[2] QHT institutu da vətəndaş cəmiyyəti quruculuğunda bütün idarəetmə və hakimiyyətin sosial siyasətini həyata keçirən qurumlarla əməkdaşlıq edərək, bu prosesdə fəal iştirakçı olurlar. "Qeyri-dövlət" və "qeyri-formal" ifadələrinin "qeyri-hökumət" adlanması anlamının məzmunu bu aspektdə olan məqsədlər ilə əlaqəlidir. Akademik R.Mehdiyevin göstərdiyi kimi: "Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna nail olmaq siyasi hakimiyyətin bütün dairələri üçün öncül istiqamət sayılan məqsəddir".[3] Məhz bu kimi cəhətlər də mövzunun işıqlandırılmasının aktuallığına dəlalət edir.

Azərbaycanda XXI əsrdə artıq QHT-dövlət münasibətləri əməkdaşlıqdan tərəfdaşlığa daxil olmaqla yeni inkişaf surəti əldə etmişdir. Ölkədə bu təsisatların da sayı xeyli artmış, eyni zamanda maddi-texniki bazası da möhkəmlənmişdir. QHT-dövlət, QHT-cəmiyyət münasibətlərinin yeni inkişafı ölkədə əhalinin vətəndaş cəmiyyəti quruculuğu prosesində fəallığını sürətləndirmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi olduqca əhəmiyyətli addım olmuşdur. Bundan başqa 13 dekabr 2007-ci il Prezident Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması ilə QHT-lərin inkişafında yeni bir mərhələnin başlanğıcı qoyuldu. Məhz müasir Azərbaycanın ictimai-siyasi həyatında baş ve-

[1] Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Qəbələdə ATƏT-in üzvü olan ölkələrin səfirlərinin qəbulu zamanı çıxışı. Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, "Dirçəliş – XX Əsr", 169-170 / 2012, səh.28

[2] Алексис де Токвиль, Демократия в Америке, М., Прогресс, 1992, глава 4

[3] Mehdiyev R. «Yeni siyasət: inkişafa doğru». Bakl, 2008, «Oskar», səh. 437

rən bu yeniləşmə meyllərinin öyrənilməsi də mövzunun aktuallığını xeyli artırmışdır.

Belə şəraitdə ölkəmizdə professor Ə.Həsənovun yazdığı kimi: "İndi dövlət orqanları da QHT-lərlə həvəslə əməkdaşlıq edir, qərarların qəbulu və sifarişlərin icrası prosesində onların iştirakına şərait yaradırlar"[1]. Bu kimi amillər də qoyulan problemin siyasi təhlilinin aktuallığını artıraraq, onun elmi tədqiqinə zərurəti şərtləndirirlər.

Onu da xüsusi olaraq qeyd etməliyik ki, "Azərbaycan – 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında da perspektiv problemlər üzrə müəyyən olunmuş vəzifələr sırasında vətəndaş cəmiyyəti təsisatlarının daha da təkmilləşdirilməsi və inkişafı aktual məsələ kimi qoyulmuşdur. Müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü beynəlxalq aləmin demokratikləşmə, müasirləşmə tələbatlarına, eləcə də vətəndaş cəmiyyəti ideallarına uyğun şəkildə baş verir.

Müasir Azərbaycan siyasət elmində QHT institutunun yeri və rolunun beynəlxalq təcrübə müstəvisində öyrənilməsi, milli təcrübənin təhlili vacib və aktual problemlərdəndir. Azərbaycan milli QHT-lərinin həm də beynəlxalq QHT-lərlə əməkdaşlığı və bu sahədə toplanan təcrübənin də məhz müqayisəli təhlili mövzunun tədqiqinin zəruri əhəmiyyət daşıdığını əks etdirir.

Beləliklə, XXI əsr Azərbaycanında ölkə Prezidenti İlham Əliyevin modernləşmə strategiyası xəttinə uyğun olaraq QHT sektorunun yeni keyfiyyət mərhələsinə keçməsi, mövzunun siyasət elmi çərçivəsində tədqiqi, QHT-lərin respublikanın ictimai-siyasi həyatında rolu və yerinin möhkəmlənməsi, bu sahədə dövlət siyasətinin işıqlandırılması, vətəndaşların ictimai-siyasi fəallıqlarını əks etdirən məsələlərin siyasi aspektdə araşdırılması tədqiqat işinin aktuallığını şərtləndirir.

**Problemin işlənmə dərəcəsi.** XX əsrin ikinci yarısından QHT-lər və onların cəmiyyətdə yeri, rolu mövzusunun öyrənilməsi də dünya elminin diqqət mərkəzində olmuşdur. Bu problemin ictimai elmlər sahəsində qoyuluşu isə XX əsrin sonlarından politoloq, sosioloq, tarixçi, filosof və digər araşdırmaçıların əsərlərində öz əksini tapmış, mövzuya dair müxtəlif aspektlərdən kitab və məqalələr yazılmışdır. Bu mövzuya müəyyən dərəcədə K.Popper "Açıq cəmiyyət və onun düşmənləri", A.Fergüsson "Sivil cəmiyyət", E.Dürkheym "Mənfəət güdməyən təşkilatların idarə edilməsi", R. Dahl "Demokratiya haqqında", A. de Tokvil "Amerikada

[1] Həsənov Ə. "Ön söz" məqaləsi, Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində, Bakl, 2011, s.8



demokratiya", R.Aron "Demokratiya və totalitarizm" və S.Hantinqtonun "Üçüncü dalğa. XX əsrin sonunda demokratikləşmə" və s. öz əsərlərində xüsusi yer vermişlər[1].

QHT-lərin hüquqi fəaliyyətindən, müqavilə və vergi hüququndan, qanunlar və qeyri-hökumət təşkilatlarının bu yöndə missiyası kimi problemlər E.Abrosimova, L.Borisov, İ.Lukaşik, P.Sıqankov, K.Şmitter[2] və s. əsərlərində də təhlil olunmuşdur.

Tədqiqatda MDB məkanı tədqiqatçılarının da əsərlərinə müraciət edilmiş, müəyyən dərəcədə bu təhlillərə həm də müəllifin öz nöqteyi nəzərindən münasibət bildirilmişdir. M. İlyinin, Y. Kaçalovun, S. Zaninin, İ. Kalnoyun, İ. Lopuşanskinin, İ. Lukaşikin, D.Metyuzin, İ. Afanasyevin, M.Ferronun və A.Solovyovun[3] əsərləri bu qəbildəndir.

İşdə problemlə bağlı lüğət, ensiklopediya, dərslik və bu kimi müntəxəbatlara da müraciət olunmuş, mövzunun kateqorial aparatının qurulmasında müvafiq ədəbiyyatlara istinad edilmişdir. Mövzunun öyrənilməsində klassiklərin, o cümlədən: Platon, Aristotel, Kant, C.Lokk, J.J. Russo, Hegel[4] və s. əsərlərindən nümunələr verilmişdir.

QHT sektorunun cəmiyyətdə rolu və yeri, eyni zamanda demokratik təsisat kimi statusu məsələləri T.Arinin, Z.Bjezinskinin,

[1] Поппер К. Открытое общество и его враги. В 2-х тт. Т.1.Москва: Феникс, 1992. 448 с.; Фергюссон А. опыт истории гражданского общества, М, 2000; Durkheim E. Professional Ethics and Civil Morals, Westport, CT: Greenwood Press, 1958; Etsioni A. От империи к сообществу: новый подход к международным отношениям. Москва, 2004, 384с.; R.Dahl "Demokratiya haqqında", B.,2004, 248s.; Токвилль А. «Демократия в Америке». М., 1992. Арон Р.Демократия и тоталитаризм. М., Мысль, 1993, 303 с.; С.Хантингтон Третья волна. Демократия в конце XX века, 2003

[2] Абросимова Е. Юридические аспекты деятельности некоммерческих организа-ций. Москва, 2000. 230 с; Борисов Л. История политических и правовых учений. Москва, Спутник, 2001, 273 с; Лукашик И. «Глобализация, государство, право XXI в VIII серия, Москва, 2000; Цыганков П. Теория международных отношений, Москва, Гардарики, 2004., 590 с.; Şmitter K. Vətəndaş cəmiyyəti və demokratiyanın konsolidasiyası haqqında düşüncələr, "Polis" jurnalı, 1996, N 5, s. 16-27

[3] Занин С. Борьба патрициев и плебеев в Древнем Риме. Москва, 1980.; Мэтьюз Д. Политика для народа. Граждане в поиске своего места в политике. Москва: Пресс Лтд. Сыновья и дочери, 1995; Соловьев А. «Три облика государства – три стратегии гражданского общества». // «Полис», 1996, № 6

[4] Аристотель, Большая этика, сочинение в 4-х томах, М., Платон. Государство/Сбор. Соч. В 4-х тт.4. Москва: Мысль, 1984; 1984; Kant I. The Methaphysical Elements of Justice. Pt. I of The Metaphysics of Morals (1794), trans. J. Ladd. New York: Bobbs-Merrill, 1995; Дж.Локк Два трактата о правлении, книга 2, глава 7; Ж.Ж.Руссо. Об общественном договоре. Канон. 1998; Hegel G. Elements of the Philosophy of Right, Cambridge: Cambridge University Press, 1991, Para 184.

A.Seliqmanın, P.Buryenin,A.Revyakinin, A.Türenin, E.Fominin[1] və s. əsərlərində təhlil olunmuşdur.

Tədqiqat işində, həmçinin, Azərbaycan müəlliflərinin əsərlərindən nümunələr verilmiş, fikir bildirilmiş və müqayisəli təhlil aparılmışdır. Bununla belə, bir sıra müəlliflər öz əsərlərində bu kimi məsələlərin fonunda ictimai təşkilatların da roluna toxunmuş, bu mövzuda fikir və mülahizələr irəli sürmüşlər.

Bu baxımdan ilk növbədə akademik R.Mehdiyevin “Azərbaycan. Qloballaşma dövrünün tələbləri” və “Vətəndaş cəmiyyətinə yol açan ideyalar” adlı əsərlərini göstərmək olar[2].

Azərbaycanda müstəqillik illərinin ilk dövrünu və həm də müasir günümüzün reallıqlarını araşdıran Azərbaycan alimlərindən Ə.Həsənov, S.Xəlilov, İ.Məmmədzadə, A.Abbasbəyli, H.Hüseynova, R.Mirzəzadə, Y.Rüstəmov, R.Aslanova, N. Ələkbərova, Ə.Tağıyevin [3] , və b. əsərlərində tədqiq olunan problemin ayrı-ayrı tərəfləri nəzərdən keçirilmişdir. Bundan başqa R.Qafarov, E.Dadaşova Ş.Bağırov, D. Müslümzadə[4] və digər müəlliflərin vətəndaş cəmiyyəti quruculuğu prosesi ilə bağlı tədqiqatları da diqqəti cəlb edir. İşin araşdırılmasında, həmçinin, rəsmi dövlət sənədlərindən, QHT-lərin informasiya bazasından, QHT-lərlə bağlı sorğu və məlumat kitablarından da istifadə olunmuşdur.

---

[1]Bzejinski Z. Torcih, Küresel Hakimiyyetmi, küresel liderlikmi?, İstambul, 2005; Кочетков. Гражданское общество: проблемы и перспективы. Вестнак. Полит. Науки 1998, №4; Ревякин А. История международных отношений в новое время. Москва: РОССПЭН, 2004. 265 с.; Хьем Л. и Зиглер Д. Теории личности… Питер. 2002; Кузнецов К. Меценат-имя собственное. БОСС, 2002, №4; Seliqman A., Vətəndaş cəmiyyəti ideyası, B., Nurlar, 2005, 240 s.

[2]Mehdiyev R. Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2001. 273 s.; Mehdiyev R. Azərbaycan: “Qloballaşma dövrünün tələbləri” . YNE. B., 2005. 382 s.; Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar.”Azərbaycan” qəzetinin nəşri. Bakı, 2006. 583 s.

[3] Həsənov Ə, “Geosiyasət”. Dərslik, Bakı, 2010 Aypara, 3-cü nəşr; Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, Azərbaycan Universitetinin nəşri, 2001.; Məmmədzadə İ. “Modernləşmə müasirliyə aparan yol kimi”. “Azərbay-can bu gün və sabah” jurnalı, №1 1 iyun, 2007. 67 səh.; Abbasbəyli A. Azərbaycan mənim ürəyimdir. “Azərnəşr”. Bakı, 2002. 517 s.; Hüseynova H. Müasir inteqrasiya prosesləri, B., 2010, 264 s.; Mirzəzadə R. Multukulturalizm: Din və gender Dialoqunda. Təknur, Bakı, 2013; Rüstəmov Y. “Sivilizasiyanın qarşılıqlı münasibətləri”. “Səda”. Bakı, 2007, 144 s.; Aslanova R. Müasir dövlət və dövlətşünaslıq elmi. Azərnəşr, Bakı, 2011; Ələkbərova N. Mədəniyyət və siyasət, B., 2000, 287 s.; Tağıyev Ə., İnsan və siyasət, B., 2005, 188 s.

[4]Гафаров Р. Формирование гражданского общества в условиях трансформачии. B., “Kitab aləmi”, 2003; Dadaşova E., Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşmasında demokratik proseslərin rolu, Avtoreferat, B., 2008, 20 s.; Bağırov Ş. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri. B., 2006, 123 s.



Bu gün QHT-dövlət, QHT-cəmiyyət münasibətləri beynəlxaq müstəvidə də vacib əhəmiyyət kəsb edir. C.Lokka istinad edərək müəllif qeyd edir ki: “Hər hansı sayda insanlar bir cəmiyyətdə birləşərkən, onlardan hər biri təbiətin qanunu ilə ona xas olan icra hakimiyyətindən imtina edərək, onu cəmiyyətə verdikdə, siyasi cəmiyyət və ya vətəndaş cəmiyyəti meydana gəlir”.[1] Beləliklə, göründüyü kimi, mövzu müasir Azərbaycan siyasi elmində ayrı-ayrı müəlliflərin əsərlərində məqalə və ya kitablar qismində yazılsa da, ayrıca elmi tədqiqat mövzusu olaraq, xüsusi tədqiq obyekti olmamışdır. Bu baxımdan təqdim olunan dissertasiya işi Azərbaycan siyasi elmində bu sahədə ilk addımlardan biri kimi qiymətləndirilə bilər. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin müasir inkişafı daima dəyişən və inkişaf edən açıq bir sistem olduğundan, onun tədqiqi istiqamətində aktuallıq anlayışının özü də dəyişir. Deməli, problemin işlənməsi dərəcəsinin özü də yenilənir. Bu baxımdan QHT-lərin belə geniş aspektdə təhlili müasir Azərbaycan siyasi elmində ilk dəfə işlənilmiş və mövzunun yeni baxışdan siyasi tədqiqinə zərurət yaratmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir Azərbaycanda **q**eyri-hökumət təşkilatlarının fəaliyyəti və bu qurumların ictimai-siyasi sistemdə yeri və rolu, predmetini isə Azərbaycanda QHT institutunun demokratikləşmə prosesinə təsiri mexanizmi və əsas xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi müasir Azərbaycanda qeyri-hökumət təşkilarının ictimai-siyasi sistemdə yerinin öyrənilməsi, vətəndaş cəmiyyəti quruculuğu prosesində QHT institutunun əsas xüsusiyyətlərini tədqiq etməklə milli və beynəlxalq təcrübənin siyasi aspektlərini araşdırmaqdan ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələr irəli sürülmüş və yerinə yetirilmişdir:

- siyasət elmində mövzunu elmi-nəzəri mənbəşünaslıq və praktik təcrübənin nəticələrindən istifadə əsasında qarşılıqlı kontekstdə təhlil etmək;
- demokratik institut olaraq qeyri-hökumət təşkilatlarının mahiyyətini, elmi əsaslarını siyasi aspektdən öyrənmək;
- cəmiyyətdə mövcud problemlərin həllində qeyri-hökumət təşkilatlarının yeni mərhələdə konkret yeri və bu problemlərin aradan

---

[1] Bax: Dж. Lokk Два трактта о правлении, книга 2, глава 2.

qaldırılmasında QHT institutunun rolunun ictimai-siyasi və sosial - hüquqi aspektlərini araşdırmaq;

- baxılan mövzunun müasir Azərbaycanda ictimai-siyasi proseslər kontekstində siyasi təhlilini vermək;

- Azərbaycanda qeyri-hökumət təşkilatlarının formalaşması və inkişafı mərhələlərinin siyasi təhlilini aparmaq və onların fəaliyyətinin Beynəlxalq Konvensiyalarla uyğunlaşmasını əsaslandırmaqla dövlətin bu sahədəki siyasi kursunun əsas istiqamətlərini açıb göstərmək;

- Azərbaycanda III sektorun fəaliyyətinin milli qanunvericilikdə öz əksini tapması və yeni qanunvericilik bazasının inkişafı məsələlərini kompleks şəkildə tədqiq etmək.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi problemin respublika siyasətşünaslıq elmində ilk dəfə müasirlik baxımından təhlili, eləcə də işin məqsədindən və qarşıya qoyulan vəzifələrdən irəli gəlir. Məlum olduğu kimi, respublika siyasət elmində QHT mövzusu müasir dövr və Dövlət siyasəti kontekstindən kompleks şəkildə işlənməmişdir. Bu baxımdan işdə aşağıdakı məsələlər ölkə siyasi elmində ilk dəfə araşdırılır:

- Müstəqil Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarının meydana gəlməsi, formalaşması mərhələləri, inkişafı və onun nəzəri əsasları siyasi elmdə ilk dəfə dissertasiya mövzusu kimi tədqiq olunmuşdur;

- Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində modernləşən Azərbaycanda QHT-lərin yeri, rolu, inkişaf dinamikası araşdırılmışdır;

- Milli və Beynəlxalq qanunvericiliyin QHT-lərlə bağlı ekspertizası aparılmışdır;

- Demokratik institut kimi QHT sektorunun milli və beynəlxalq təcrübəsi müqayisəli təhlil əsasında öyrənilmişdir;

- XXI əsr Azərbaycanında dövlət və QHT qarşılıqlı münasibətlərinin yeni mərhələsi ilk dəfə siyasi istiqamətdə tədqiq edilmişdir.

Təqdim olunan tədqiqatın aktuallığı və yeniliyi Azərbaycan siyasət elmi üçün yeni mövzu olan bu sahədə əsasən XXI əsrdə artıq formalaşmış III sektorun ölkə üzrə fəaliyyəti, milli QHT-lərlə bağlı dövlət siyasətinin yeni mərhələsi və bu zərurətdən yaranan məsələlərin araşdırılmasıdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri bazasını ilk növbədə problemlə bağlı Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdükləri



konseptual müddəalar, eləcə də bu sahədə işlənilmiş fundamental elmi əsərlər təşkil edir. Bunlar həm də işin empirik bazasını təşkil etmişdir. Dissertasiyada problemə kompleks yanaşma çərçivəsində tədqiqat metodları kimi sistemli siyasi analiz, müqayisəli politoloji təhlil, kontent-analiz metodlardan, anket sorğusu, müsahibə və eləcə də ümummməntiqi və siyasi analizin digər metodlarından istifadə olunmuşdur. Bunlarla yanaşı, müəllifin uzun illər ərzində ictimai sektor sahəsində apardığı öz müşahidə və praktik təcrübəsindən əldə edilən nəticələrdən də dissertasiya işində geniş istifadə olunmuşdur.

Mövzunun işlənməsi prosesində Azərbaycan Respublikasının Konstitusiyası, tədqiq olunan mövzu ilə bağlı müvafiq Qanunlar və mövcud qanunvericilikdə olan müddəalar, müstəqil Azərbaycanda imzalanan sərəncam və fərmanlar, mövzunun beynəlxalq hüquqi aktlarda öz əksini tapmış sənədləri, yerli və beynəlxalq elmi konfransların materialları, eləcə də problemlə bağlı elmi əsərlər də mənbə rolunu oynamışdır.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyətinin bir atributu, həm də ölkədə demokratik ənənələrin inkişafı və dövlət quruculuğunun möhkəmləndirilməsi, dövlət-cəmiyyət münasibətlərinin tənzimlənməsi, cəmiyyətdə mövcud problemlərin həllində rolu, demokratik proseslərə, siyasi şüura və siyasi mədəniyyətə təsirindən irəli gələn vəzifələrin tədqiqi nəzəri və praktik əhəmiyyət kəsb edir.

Tədqiqatın nəticələrindən siyasi-ictimai ümumiləşdirmələrdə, cəmiyyətin demokratikləşməsi proseslərinin həyata keçirilməsində, üçüncü sektorun inkişafı və vətəndaş cəmiyyəti quruculuğunda istifadə edilə bilər. Dissertasiyanın materialları, aparılan tədqiqat işindən əldə edilən nəticələr və ümumi nəzəri məsələlərindən ictimai-siyasi istiqamətli tədqiqatlarda, "Vətəndaş cəmiyyəti quruculuğu", "Qeyri-hökumət təşkilatları və Azərbaycan" və bu kimi digər mövzuların tədrisində, humanitar elmlər sahəsində araşdırmalar aparan mütəxəssislərin elmi işlərində, eləcə də müvafiq kurslarda, mühazirə və seminar məşğələlərin aparılmasında geniş istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında müzakirə edilmiş və müdafiəyə tövsiyyə olunmuşdur. Tədqiqatın əsas nəticələri müəllifin Azərbaycanda və xaricdə dərc edilmiş elmi məqalələrində, elmi konfrans, seminarlar və KİV-lərdəki çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi açıqlanır, tədqiqatın obyekti və predmeti göstərilir, məqsəd və vəzifələri qeyd olunur, tədqiqatın elmi yeniliyi verilir, metodoloji əsasları müəyyənləşdirilir, nəzəri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın **"Qeyri-Hökumət Təşkilatlarının formalaşması: tarixi və nəzəri – siyasi aspektləri"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. Birinci fəslin **"İctimai təşkilatların meydana gəlməsi tarixinə ümumi baxış**" adlı birinci yarımfəslində tarixi inkişaf mərhələsində ictimai sektorun öz mövcudluğunu qoruması və fəaliyyətini genişləndirməsi, formalaşdırılması məsələləri təhlil edilir. İşdə göstərilir ki, Siyasi-ictimai fikir nümayəndələri bu quruma müxtəlif adlar verir. Belə ki, D.Rozenau bu təsisatı "suverenlikdən kənar aktorlar", M.Merl "transmilli qüvvələrdən biri", M.Şmits "yeni aktorlar" və s. adlandırırlar.[1] Tədqiqatda göstərilir ki, cəmiyyəti təşkil edən fərdlərin könüllü şəkildə bir araya gəlib, onları əhatə edən problemlərin, çeşidli məsələlərin həllində sıx əməkdaşlıq etməsi halı özü-özlüyündə bəşər həyatının tarixi qədər dərin keçmişə malikdir. C.Lokkun qeyd etdiyi kimi: "Cəmiyyətdə insanların iradəsi ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə ilə əngəllənmir" [2] Ancaq bu prosesin demokratik və sivil qaydalarla qurulması son yarım əsrdə formalaşmağa başlamışdır. Belə ki, R.Beynerin fikri ilə deyilsə "belə könüllü təşəbbüslər vətəndaşları sabit siyasi icmada və dövlətdə birləşdirir və bu birliyin davamlı olmasına imkan verir. Ümumiyyətlə, insanların könüllü təşəbbüsləri bütün zamanlarda xalqların ictimai-siyasi inkişaf tarixini səciyyələndirən mühüm amillərdən biri sayıla bilər. Ancaq problemin siyasi fəlsəfi tərəfi budur ki, onların hər ikisinin də mövcudluğu ictimai zərurətdən irəli gəlmişdir və deyə bilərik ki, biri digərini tamamlamaqdadır."[3]

[1] Bax:Sarotri G. Parties and Party Sistems. New York, 1976, p.64
[2] Bax: Demokratiya: Gediləsi uzun bir yol. Antologiya, B., 2001, s.51
[3] Beyner R. İntradasion. Why Litizenship Constitutes a the Problem in the last Decade of the Twentienth Century Albany, 1995. P 1-14



İşdə deyilir ki, vətəndaş cəmiyyəti təşkilatlarının qərb təcrübəsi və qərbin müxtəlif məzmunlu dəstəyinə əsaslanması təbii prosesdir. Sosial-siyasi fikir tarixinə nəzər yetirəndə bəlli olur ki, vətəndaşlar həmişə azad əqidə, sərbəst mövqe bildirmək məqsədilə dövlət və hakimiyyətdən asılı olmayan qurumlarda təşkilatlanmağa cəhd edirlər. T.Hobbsun yazdığı kimi: "Məxsusi qruplar təbəqələrin özləri tərəfindən qurulub, yaxud özgə hakimiyyətin verdiyi səlahiyyətlər əsasında yaranıbdır".[1]

Müəllif göstərir ki, demokratikləşmə prosesində vətəndaş təşəbbüskarlığını reallaşdırmaq üçün ən yaxşı və effektli təşkilatı forma məhz qeyri-hökumət təşkilatlarıdır. Yəni E.Tofflerin göstərdiyi kimi: "əhali fərdiləşdirmənin artması uğrunda mübarizə aparırlar."[2] Müasir cəmiyyətdə özünəməxsus yeri olan QHT-lərdən bəhs etdikdə, bəzən belə təsəvvür yarana bilər ki, onlar yenilənən cəmiyyətin ərsəyə gətirdiyi qurumlardır.

Hökumətlər, dövlətlərarası yaranan qurumlardan fərqli olaraq, qeyri hökumət təşkilatları qeyri-ərazi qurumlarıdır, çünki suveren, müstəqil dövlət burada üzv olmur.

Tarixə siyasi nəzər yetirdikdə bəlli olur ki, ənənəvi cəmiyyətlərin təsisatlanma təşəbbüsləri də qədimdir, bu da hər dövrün öz mədəni-siyasi baxışlarının zənginliyi ilə ölçülür. Azərbaycanda belə baxışlar və təşəbbüslər qədim dövlətçilik ənənələrindən bəhrələnərək hər zaman bu və ya digər şəkildə formalaşıb, inkişaf etmişdir.

İşdə nəzərə çatdırılır ki, Azərbaycan xalqının mənəvi inkişafı və maariflənməsi yolunda öz dövrünün problemlərini açıqlayan Nizami, Xaqani, Şəms Təbrizi, Nəsirəddin Tusi, Əcəmi Naxçıvani, Əbdülqadir Marağayi, A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi və s. tarixi şəxsiyyətlərin fəaliyyətində və yaradıcılığında ictimai birliklər, ayrı-ayrı cəmiyyətlər, dərnəklər xüsusi rol oynamışdır.

XIX-cu əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanda baş verən milli-mədəni oyanışın önündə ziyalıların olması və onların sonradan təşkilatlanması yeni ictimai qurumların meydana gəlməsinə səbəb oldu. İşdə açıqlanır ki, ilk belə addım H.B.Zərdabi tərəfindən atılır və XIX əsrin 70-ci illərində Azərbaycan mətbuatının banisi H.B.Zərdabi Azərbaycanda ilk qeyri – hökumət təşkilatı olan "Xeyriyyə" cəmiyyəti, sonra isə H. Z. Tağıyev 1905-ci ildə "Müsəlman Xeyriyyə Cəmiyyəti" adlı təşkilat yaradır. Bu təşkilatların məqsədi – yoxsul və ehtiyacı olan

[1] Гоббс Т. Сочинения в 2-х томах, М., Мысль, 1991, с.174
[2] Э.Тоффлер, Третья волна, М., 1999, стр.689

müsəlmanlara kömək etmək, məktəblərdə oxuyan yoxsul və yetim uşaqlara maddi yardım göstərmək, qoca müsəlmanları himayə etmək, yoxsul uşaqlarını sənət məktəbində oxutmaq və s. idi. Cəmiyyət əsasən Bakı varlılarından və varlı ziyalılarından ibarət idi. Cəmiyyətin sıralarında H. Z. Tağıyev, H. Zərdabi, Ə. Topçubaşov, Ə. Ağayev, Ə. Hüseynzadə və digərləri vardı[1]. Bu cəmiyyət Birinci Dünya müharibəsi illərində Nargin adasında saxlanılan türk əsirlərə də yardımını əsirgəmirdi. Beləliklə, tədqiqatın bu yarımfəslində tarixə qısa baxışda digər dövrlərlə yanaşı XX əsrin ictimai mühitinin təhlili də aparılır.

I fəslin ikinci yarımfəsli **"QHT-lərin sosial-hüquqi mahiyyətinin təhlili"** adlanır. Bu yarımfəsildə ictimai təşkilatların meydana gəlməsi və formalaşmasının nəzəri aspektləri tarixi mənbələrə istinad olunaraq araşdırılır. Bəs XXI əsr insanının qarşısında duran ən mühüm vəzifələr hansılardır? İşdə diqqətə yetirilir ki, yer üzündə hələ də kütləvi qırğınların törədilməsi və nüvə müharibələrinin başlanması kimi risklər mövcuddur. Hələ də lokal silahlı toqquşmalar, milli-etnik zəmində münaqişələr və terror bəşəriyyət qarşısında real təhlükə mənbəyi kimi qalmaqda davam edir. Müəllifin Y.Habermasa istinadən göstərdiyi kimi: "Demokratik vətəndaşlıq hansısa xalqın milli identikliyində kök salmağa möhtac deyildir, lakin müxtəlif mədəni həyat formalarının rəngarəngliyinə laqeyd olan demokratik vətəndaşlıq ümumi siyasi mədəniyyət çərçivəsində bütün vətəndaşların sosiallaşmasını tələb edir."[2]

Şübhəsiz ki, bəşəriyyətin bu kimi qlobal problemlərinin həllində - dünyada sülhün bərqərar olmasında, ümumi təhlükəsizliyin təmin edilməsində, iqtisadi, hərbi, mədəni, ekoloji mühitin qorunmasında mühüm maliyyə imkanlarına və hakimiyyət səlahiyyətlərinə malik dövlət qurumları ilə yanaşı ictimai təşkilatlar, əsasən QHT sektoru da aparıcı rol oynayırlar.

Tədqiqatda aydın olur ki, ekoloji, demoqrafik, sosial problemləri yalnız dövlətlərin və hökumət strukturlarının səyləri ilə deyil, həmçinin, vətəndaşların təşkilatlanmış, geniş iştirakı, konkret desək, QHT-lərin fəaliyyəti olmadan aradan qaldırmaq çətindir. QHT- lər problemlərin aşkar edilməsi və həlli yollarının axtarılması baxımından da milli dövlətin formalaşmasında mühüm əhəmiyyət daşıyaraq, siyasi sistemin vacib elementinə çevrilməkdədirlər. Müəllif işdə göstərir ki, müasir dünyada, eləcə də Azərbaycanda gedən qlobal demokratikləşmə dalğa-

[1] İlkin Q. Bakı və bakılılar. B.1999, s.171
[2] Хабермас Ю., Демократия, Разум, Нравственность., М., 1995, стр.223



sında müasir insanın həyat və fəaliyyətinin ən vacib problemlərinə diqqəti yönəldən xeyli sayda yeni QHT-lər yaranıb formalaşmışdır.

Dissertant bir məqamı da qeyd edir ki, qloballaşma prosesində qlobal "risk cəmiyyəti"nin yaranması təhlükəsi də dünyada aktuallaşır. Bu problem müasir dövrün bir sıra nəzəriyyəçiləri tərəfindən ciddi şəkildə öyrənilməkdə və təhlil edilməkdədir. Belə bir riskin qarşısının alınmasında cəmiyyətin aktiv hissəsi hesab edilən ictimai qurumların bilavasitə iştirakı labüddür. Bu baxımdan dissertant Z.Bzejinskinin "əsasən dünyada mövcud olan sərhədlərin aradan qalxmasını dəyərləndirərkən, bu halın insanlar üçün deyil, məhz dövlətlər, dövlətlərarası qurumlar və dövlətdənkənar təşkilatlar üçün vacibliyi" fikrini xüsusi vurğulayır[1].

Həqiqətən də qloballaşmanın genişləndiyi müasir dünya siyasətində ən güclü dövlətin belə müdaxiləsinin birbaşa mümkün olmadığı hərbi-siyasi problemlər mövcuddur ki, onların həlli istiqamətində məhz QHT-lər səy göstərirlər. "Böyük Sıçrayış" əsərində, F.Fukuyamanın söylədiyi kimi: "...təsisatların liberal demokratiyaya doğru təkamülü"[2]... prosesi gedir. İşdə nəzərə yetirilir ki, bu kimi amillər müasir dünyada QHT fəaliyyətinin Dövlətin və cəmiyyətin inkişaf tempində oynadığı rolun nə qədər əhəmiyyətli olmasını bir daha sübut edir.

İşin I fəslinin üçüncü yarımfəsli **"Vətəndaş cəmiyyəti quruculuğunda III sektorun siyasi mənzərəsi"** adlanır. Bu yarımfəsildə vətəndaş cəmiyyəti quruculuğu prosesində üçüncü sektorun yeri və roluna nəzər salınır. Həmçinin bu yarımfəsildə göstərilir ki, insanlar siyasi sistemə istənilən səviyyədə QHT-lər vasitəsilə daha çevik təsir göstərə bilmək imkanlarına malik olurlar. Müəllif bu haqda məlumat verərək vurğulayır ki, "Vətəndaş cəmiyyəti" quruculuğu insanların özləri üçün yaratmaq istədikləri ən real və arzuolunan ictimai-siyasi şəraitdir. Vətəndaş cəmiyyəti hər bir dövlətdə sadəcə müəyyən hüquqi mexanizm və qurumların yaradılması deyil, hər şeydən əvvəl vətəndaş, dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur. Ümumiyyətlə, işdə qeyd olunur ki, dövləti cəmiyyətlə eyniləşdirmək olmaz. Bir anlayış olaraq, onları bir-birindən ayırmaq lazımdır. Dövlət cəmiyyətdən onun müəyyən yetkin inkişaf dövründə ayrılmışdır. Aristotelin dediyi kimi: "Dövlət

[1] Bjezinski Z. "Tercih, Küresel Hakimiyet mi, Küresel Liderlik mi?" İNKİLAP, İstanbul, 2005.
[2] Фукияма Ф. Великий разрыв, М., 2003, стр.21

vətəndaşların toplusudur”.[1] Tədqiqatda vətəndaş cəmiyyəti ilə dövlət arasındakı münasibətlərin qanunauyğunluqlarının müəyyən edilməsində III sektorun keçdiyi yolun təhlili verilməklə, həm də dövlətçiliyin müasir problemlərinin həlli mexanizmlərində ictimai təsisatların da rolu kimi məsələlər açıqlanır.

Cəmiyyətin özü sadəcə fərdlərin məcmusu deyil, bu, mürəkkəb sosial orqanizmdir, insanların qarşılıqlı fəaliyyət məhsuludur, onların istehsal, mübadilə və maddi nemətlərin istehlakı ilə bağlı sosial-siyasi həyatın müəyyən mənada təşkilatlanmasıdır. Bu üçüncü sektordur. Bu isə fərdlərin elə birliyidir ki, burada bioloji deyil, sosial qanunlar işləyir.

Bütün bunlar onu göstərir ki, insanların bir araya gəlib ərsəyə gətirdikləri ictimai qurumların fəaliyyəti dövlətin bilavasitə məşğul olduğu bütün sahələri əhatə edir. Bu və ya digər dövlətdə milli siyasətin müəyyənləşməsində də ictimai qurumlar dövlət qurumları qədər vacib əhəmiyyət kəsb edirlər. III sektor kateqoriyal aparatına görə belə ayrılır: tərkib və məqsədə görə beynəlxalq statuslu, təsisçiliyə görə ictimai xarakterli və fəaliyyətinə görə könüllülük prinsipidir. Hazırda bu proseslər bütün dünyada müşahidə olunan bir həqiqətdir. Dissertant diqqətə çatdırır ki, vətəndaş cəmiyyəti quruculuğunda III sektorun rolundan danışarkən bu sahədə könüllü fəaliyyətin əhəmiyyətini də mütləq qeyd etmək lazımdır. Belə ki, könüllülük fəaliyyəti dünyada geniş vüsət almaqdadır. Artıq daha çox insanın könüllülük hərəkatına qoşulması müşahidə olunur.

İşdə açıqlanır ki, vətəndaş cəmiyyətini formalaşdıran amillərdən biri də siyasi sistemin legitimliyidir. Legitim siyasi sistem insan münasibətlərinin sabit formasıdır və onun vasitəsilə cəmiyyətin bütün üzvləri, yaxud bir qismi üçün qərarlar qəbul edilir və həyata keçirilir. K.Şmitter məntiqi ilə deyilsə: “...vətəndaş cəmiyyətinin formalaşması yolu ilə demokratiyanın konsolidasiyası mümkündür.”[2] Ümumiyyətlə isə, demokratik təsisatların tərkib hissəsi olan III sektorun həm də hakimiyyətin siyasi konsepsiyasında öz yeri olması məsələlərinə də bu yarımfəsildə nəzər yetirilir.

Dissertasiyanın **“Qeyri-Hökumət Təşkilatlarının milli qanunvericilikdə və beynəlxalq normalarda təsbiti”** adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin **“Milli qanunvericilikdə QHT-lər demokratik təsisat kimi”** adlanan birinci yarımfəslində QHT-

[1] Aristotel. Politika, Bakı, 1996, s. 227.
[2] “Полис”, M., 1996, N 5, səh.16



lərın milli qanunvericilikdə də təsbit olunduğu kimi vətəndaş cəmiyyətinin mühüm institutu olması təhlil edilir və ölkədə demokratiyaya kompleks keçid proseslərində QHT institutunun hüquqi zəmində rolu araşdırılır. Məlum olduğu kimi, keçmiş SSRİ-də ictimai-siyasi quruluş üçüncü sektorun həqiqi potensialının gerçəkləşməsinə şərait yaratmamış, milli qanunvericilikdə öz əksini tapan müddəalar məhz dövlət müstəqilliyinin əldə olunması sayəsində ərsəyə gəlmişdir.

QHT-lər hansı sferada fəaliyyət göstərməsindən asılı olmayaraq digər rəsmi qurumlarla dövlətin strateji məsələlərinin daşıyıcısına çevrilirlər. Belə ki, QHT-lər də dövlətin qüvvədə olan qanunları ilə hesablaşmalı, fəaliyyəti zamanı mövcud qanunvericiliyə riayət etməli, səlahiyyətləri çərçivəsində həyata keçirdikləri fəaliyyət prosesində öz məsuliyyətlərini daim hiss etməlidirlər.

İşdə aydınlaşdırılır ki, bu məsuliyyəti formalaşdırmaq üçün dünyanın mülki cəmiyyət institutları mövcud olan istənilən ölkəsində, o cümlədən də, Azərbaycanda QHT-lərin fəaliyyətinin hüquqi tənzimlənməsi üçün bir sıra qanunlar və normativ hüquqi aktlar mövcuddur. Bu qanunların bir hissəsi bilavasitə, digərləri isə dolayısı ilə QHT sektorunun fəaliyyətinin tənzimlənməsində müstəsna rol oynayır. Ölkədə müstəqillik dövründə formalaşan bu qanunların həyata keçirilmə mexanizmləri müasir dünyada vətəndaş cəmiyyətinin formalaşma prinsiplərini nəzərə alaraq təkmilləşdirilmiş və bu gün həmin siyasət ilbəil daha da humanistləşdirilir.

Bu yarımfəsildə müasir Azərbaycanda QHT-lərin milli mənafe, milli dövlətçilik maraqları ətrafında sosial-siyasi problemlərlə bağlı öz fəaliyyətlərinin müxtəlif layihələr çərçivəsində daha çox genişləndirməsi, eyni zamanda öz fəaliyyətlərinə ictimai diqqəti yönəltməyi bacarması və nəhayət valantyor (könüllülük) fəaliyyətinin müxtəlif həvəsləndirmə və stimullaşdırma vasitələri ilə daha da genişləndirilməsi kimi təkliflər verilir.

İşin **İkinci fəslinin “Beynəlxalq Hüquqi Aktlarda QHT-lər”** adlı ikinci yarımfəslində QHT-lərin beynəlxalq hüququn obyekti və beynəlxalq hüquqi münasibətlərin subyekti olması faktlarına aydınlıq gətirilir, bu qurumun Beynəlxalq Hüquqi Aktlarda da qeyd edildiyi kimi cəmiyyətin siyasi sisteminin bilvasitə mühüm elementi olması fikirləri təhlil edilir. Beynəlxalq müstəvidə ictimai təsisatların fəaliyyət mexanizmlərinə tarixi və instutsional metodlarla aydınlıq gətirilir. QHT-lər tipoloji meyarlarına görə belə bölünür: universal (BMT), regionlararası (İslam Konfransı Təşkilatı), regional (Benilüks), iqtisadi (EACT),

hərbi (NATO), maliyyə (BVF), elmi (Evrika) və s. Dissertant göstərir ki, müasir dövrdə III sektorun cəmiyyətdə oynadığı əhəmiyyətli rolu, onların nüfuz dairəsinin ayrı-ayrılıqda, bu və ya digər ölkə hüdudlarından aşmasına, beynəlxalq arenaya çıxmasına və ümumdünya xarakteri kəsb etməsinə səbəb olmuşdur. Artıq üçüncü sektorla bağlı hüquqi normativlər yalnız milli qanunvericilikdə deyil, beynəlxalq və regional təşkilatların da rəsmi sənədlərində öz əksini tapmaqdadır. Bu qurumların yeni fəaliyyət istiqamətlərində QHT-lərin də nəzərəçarpacaq payı vardır. QHT-lər əsasən ictimai sferada fəaliyyət göstərən qurumlar olsa da, artıq bu gün onların beynəlxalq siyasi proseslərdə fəal iştirakından danışmaq mümkündür. İşdə açıqlanır ki, bu iştirak heç də birdən-birə mümkün olmamış və hadisələrin tədrici axarı, prosesin məntiqi yekunu olaraq meydana gəlmişdir. QHT-lərin beynəlxalq, sosial-siyasi, hüquqi, mədəni, ekoloji və s. proseslərdə yaxından iştirakı onların beynəlxalq hüquq sistemində yerini və rolunu formalaşdırmışdır. Başqa sözlə, dövlətlər tərəfindən, onların özləri və onlarla beynəlxalq qurumlar arasında münasibətləri tənzimləmək üçün formalaşdırılan beynəlxalq hüququn müddəaları bu münasibətlərin bütün iştirakçılarına, o cümlədən QHT-lərə də aiddir və onlar bütün planet üzrə demokratiyanın qurulmasına və möhkəmlənməsinə əsasən yardım göstərirlər. Belə ki, QHT-lər insanların fikir və ifadə azadlığı, sərbəst toplaşmaq və sair bazis hüquqlarına hörmət aşılamaq istiqamətində fəaliyyət göstərirlər.

İddiaçı bu səbəblərdən də tədqiq etdiyi mövzuda vətəndaş cəmiyyətinin rolunun ilbəil artmasını şərtləndirən faktor kimi QHT-cəmiyyət, QHT-dövlət, QHT-siyasi sistem və Beynəlxalq Hüquqi Aktlarda bu məsələlərin siyasi paradiqmalar nöqteyi nəzərindən təhlilini aparmağı məqsədə müvafiq bilir.

İkinci fəslin üçüncü yarımfəsli **"Müasir beynəlxalq münasibətlər sistemində QHT-lərin rolu"** adlanır. Bu yarımfəsildə qeyd edilir ki, dünyada sülhün, sabitliyin təmsilçisi qismində çıxış edən və humanizm örnəyi olan QHT-lərin beynəlxalq münasibətlər sistemində geniş şəkildə davamlı iştirakı, siyasi sistemdə sabitlik və təhlükəsizlik elementlərini artırır və bu sistemin inkişafını şərtləndirir. Eyni zamanda QHT-lərin təmsil etdiyi ölkələrin daha vacib problemləri ilə bağlı müraciətləri beynəlxalq ictimaiyyət, daha konkret olaraq BMT tərəfindən daha ədalətli şəkildə dəstəklənməsi məsələsi açıqlanır. Həmçinin bu kimi amillərin dünya siyasətinin qlobal demokratikləşmə istəyinə də məntiqi aydınlıq gətirməsi vurğulanır.



İşdə müasir beynəlxalq münasibətlər sistemində QHT-lərin mövqeyi, yeri və roluna nəzər salmazdan əvvəl beynəlxalq sistemin mahiyyətinin bəzi aspektlərinə toxunulmasının məqsədəuyğun olduğu göstərilir.

XX əsrin əvvəllərindən etibarən beynəlxalq münasibətlərdə baş verən hadisələr, sosial-siyasi dəyişikliklər bu sistemdə yeni münasibətlərin əsasını qoydu. Belə ki, birinci dünya müharibəsi ilə başlayan yeni dövrün, ilk növbədə yeni əsası qoyulan sistemin iştirakçılarının tərkibinin dəyişdirilməsi və yeni Versal-Vaşinqton sistemi iştirakçılarının siyahısına dövlətdən kənar qurumların - QHT-lərin də daxil edilməsi kimi məsələlərə də tədqiqatda aydınlıq gətirilir.

Beynəlxalq münasibətləri izah edən əsas nəzəri fikirləri təhlil edən müəllif bu yarımfəsildə beynəlxalq QHT-lərin dövlətdən kənar subyekt olaraq beynəlxalq münasibətlər sistemində müəyyən yerə sahib olması və müəyyən rol oynaması reallığının əksər nəzəriyyəçilər tərəfindən də qəbul edilməsi fikrini açıqlayır. Tədqiqatda qeyd olunur ki: "K.Makferson və D.Heldin öz tədqiqatlarında liberal demokratiyanın protektiv (protektive) və inkişafda olan (developmental) modellərini fərqləndirirlər. Birinci istiqaməti C.Lokk, S.Monteskyu, İ.Benta və C.Mill, ikincisini isə A de Tokvil, C.S.Mill, C.Dyui və L.Hobkaus təmsil edirlər. Hər iki model üçün ümumi cəhət vətəndaş cəmiyyətinin dövlət qarşısında üstünlüyü, təmsilçilik üsul idarəsində özünü göstərən xalq suverenliyi, şəxsiyyətin hüquq və azadlıqlarının qorunmasıdır."[1]

Dissertasiyanın **"Müasir Azərbaycanda QHT-lər: dövlət siyasəti və milli inkişaf mexanizmi"** adlı üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin **"Heydər Əliyev və Azərbaycanda QHT institutunun formalaşması"** adlanan yarımfəslində Ulu Öndər Heydər Əliyevin QHT-lərin inkişafı istiqamətində gördüyü işlər, apardığı məqsədyönlü siyasi kurs ətraflı araşdırılır, XX əsrin sonunda Azərbaycan cəmiyyətində ictimai sektorun inkişaf xüsusiyyətləri təhlil edilir.

İşdə müstəqil Azərbaycanın vətəndaş cəmiyyəti institutlarının keçdiyi inkişaf yoluna nəzər salınır, ilk olaraq 1990-cı illərin əvvəllərinin böhranlı vəziyyəti və bundan doğan ictimai, iqtisadi, çətinliklərə nəzər yetirilir. Çünki o dövrdə müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda nəinki QHT sektorundan, yaxud formalaşmış vətəndaş cəmiyyətindən

---

[1] Грачев М., Мадатов А.Демократия: методология исследования, анализ перспектив, М., 2004, с.152

danışmaq mümkün idi, ümumiyyətlə, ölkənin müstəqil dövlət olaraq varlığının qorunması sual altında idi.

Məhz 1993-cü ildə, ictimai-siyasi durumun çətin məqamında Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması, onun Azərbaycan dövlətçiliyinin bütün vacib istiqamətlərdə möhkəmləndirilməsi ilə yanaşı güclü vətəndaş cəmiyyətinin formalaşması məsələsini də prioritet istiqamət kimi diqqətində saxlamasına tədqiqatda siyasi müstəvidə aydınlıq gətirilir.

Təbii ki, müəllif təhlil edir ki, belə böyük miqyaslı vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması qısa zaman kəsimində reallaşa bilməzdi. Bunun üçün ilk növbədə ölkədə hüququn aliliyi təmin edilməli, sabit ictimai münasibətlər zəmini formalaşdırılmalı, beynəlxalq təcrübə öyrənilməli, QHT sektoru cəmiyyətə daşınmalı və bir sıra digər mühüm mərhələlər keçilməli idi. Ulu Öndər Heydər Əliyevin bu sektorun strateji planda inkişafı üçün atdığı addımlar tezliklə öz konkret nəticələrini göstərməyə başlamışdır. 1993-cü ilin avqustunda Ulu Öndərin cəmiyyətin ən fəal təbəqəsi - gənclər təşkilatlarını bir araya gətirərək onlarla ilk və tarixi görüşünü keçirtməsi, bununla da gənclərə vətəndaş cəmiyyəti quruculuğu prosesində öncül yer verilməsi və çox əhəmiyyətli ictimai münasibətlərə başlanılması faktları da işdə araşdırılır.

Beləliklə, zamanca çox da böyük bir dövrü əhatə etməyən, ancaq mülkü cəmiyyətin formalaşması və demokratiyanın inkişafı baxımından xeyli uğurlar əldə etmiş müstəqillik dönəmində Azərbaycanda ictimai sektorun təşəkkül və inkişaf tarixinin mərhələləri dissertasiyada siyasi aspektdə təhlil edilir.

**Üçüncü fəslin "Modernləşən Azərbaycanda QHT-lərın vəziyyəti və fəaliyyət istiqamətləri"** başlıqlı ikinci yarıməslində müasir dövrdə QHT-nın ictimai həyatdakı rolu və fəaliyyəti tədqiq edilir. Bu fəaliyyətin üfüqi dinamikası nəinki demokratiyanın, eyni zamanda insanların sosial-mədəni və gündəlik həyat tərzinin müsbət keyfiyyətlərini artıran faktor kimi araşdırılır. QHT institutu müasir ictimai-siyasi fəaliyyətin qurulmasında və əlaqələndirilməsində mühüm elementlərindən biri kimi tədqiq edilir. Burada Aristotelin fikrinə istinad olunur ki: "Bütün vətəndaşların ya dövlətin həyatına aid hər şeydə iştirak etməsi, digər işlərdə isə iştirak etməməsi qaçılmazdır. Vətəndaşların heç nədə iştirak etməməsi mümkün deyildir."[1] Bu məsələyə ölkə Prezidenti İ.Əliyev isə belə açıqlama verir: "Ciddi ictimai nəzarət olmadan, bizim

[1] Аристотель, Политика, Сочинения в 4-х томах, М., 1984, том 4, с.455



nəzərdə tutduğumuz proqramların həyata keçirilməsi çətinliklərlə üzləşə bilər."[1]

Tədqiqatda Azərbaycanda gedən sosial-iqtisadi və ictimai-siyasi proseslərin vətəndaş cəmiyyətinin fonunda demokratikləşmə prosesinə kömək olması, Azərbaycanın dünya siyasətinə inteqrasiyasında cəmiyyətin ən müxtəlif nümayəndələrinin QHT hərəkatına qoşulması və yeni-yeni QHT-lərin yaranması da təhlil olunur.

Dissertasiyada QHT-lərin fəaliyyəti zamanı meydana gələn yeni ideyalara və alternativ fikirlərə hökumət qurumlarının adekvat münasibəti, Azərbaycan QHT-lərinin fəaliyyət yönümünün ölkənin ümumi siyasi-iqtisadi, sosial-mənəvi durumu ilə diktə olunması aspektinə də nəzər yetirilir. Təsadüfi deyildir ki, ölkə QHT-lərinin böyük bir hissəsi, təxminən dörddə biri, bilavasitə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaratdığı nəticə və fəsadların aradan qaldırılmasına yardım etmək üçün çalışır.

Eyni zamanda, Dövlətin vətəndaş cəmiyyətinin inkişafına diqqət və qayğısının artırılması kimi amillər də bu yarımfəsildə təhlil edilir.

**III fəslin "Azərbaycan Respublikasında Dövlət QHT siyasəti"** adlanan üçüncü yarımfəslində qeyd edilir ki, **c**əmiyyətin demokratik təsisatlanması, ictimai institutlaşması müasirləşən respublikada artıq dövlət siyasətinə çevrilmişdir.

Bu siyasət dövlətlə cəmiyyət arasında harmoniyanın saxlanması və inkişaf proseslərinə daxil olmağın daha əlverişli və perspektivli istiqamətidir. Bu yarımfəsildə qeyd edilir ki, Azərbaycanda davamlı siyasi kursun formalaşması həm ölkə, həm də region üçün böyük müsbət əhəmiyyətli proseslərin başlanğıcıdır. Eyni zamanda ölkə prezidenti İlham Əliyevin vətəndaş cəmiyyətinin inkişafına göstərdiyi böyük dəstək də bu fəsildə ətraflı araşdırılır.

Ulu Öndər Heydər Əliyevin böyük müdriklik və uzaqgörənliklə on illər öncə müəyyənləşdirdiyi siyasi kursun nəticə etibarilə hazırda ölkə QHT-lərini cəmiyyətin ən fəal, dinamik və çevik ictimai qüvvəsinə çevirilməsi faktı diqqətə çatdırılır. Müəllif vurğulayır ki, Prezident İlham Əliyev də bu siyasəti uğurla davam etdirərək, ölkədə vətəndaş cəmiyyətinin inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm irəliləyişlərə nail olmuşdur. Şübhəsiz ki, bu sırada ən mühüm hadisə 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının

[1] Azərtac, Bakı, 3 oktyabr, 2006-cı il

yaradılması olmuşdur ki, bununla da QHT-lərin inkişafında yeni bir mərhələnin başlanğıcı qoyulmuşdur. Şuranın simasında Azərbaycanda çevik, cəmiyyətin bütün siyasi və qeyri-siyasi təbəqəsi üçün açıq milli donor institutunun yaradılması Azərbaycan cəmiyyətinin demokratiyaya kompleks keçid dövrünü xeyli sürətləndirdi. Müasir Azərbaycanın ictimai-siyasi həyatında baş verən bu yeniləşmə meylləri vətəndaş cəmiyyəti quruculuğunda milli inkişaf molelinin yaradılması dissertasiya işində geniş təhlil edilir.

Modernləşmə xəttini əsas götürən respublikada, hətta dünya siyasətçilərinin də etiraf etdiyi kimi yeni normalar sistemi - Azərbaycan standartları yaranmaqdadır. QHT sektorunda da Azərbaycan modelinin yaranması özünü bir sıra ölçülərdə göstərir ki, onlardan da biri artıq Azərbaycanın ölkə xaricində, beynəlxalq sferada fəaliyyət göstərən inistitutlara yönəlik dəstək konsepsiyasıdır.

**Nəticədə** tədqiqata yekun vurulur, təhlil edilmiş nəticələr ümumiləşdirilərək onların əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən təkliflər, tövsiyyələr irəli sürülmüşdür. Ümumi qənaət ondan ibarət olmuşdur ki, Azərbaycanda demokratik siyasi kursun formalaşması nəinki ölkəmizdə, eləcə də regionda müsbət əhəmiyyətli dəyişikliklərin təməl nöqtəsi oldu. Ulu Öndər Heydər Əliyev tərəfindən ölkəmizin siyasi fəaliyyət prioritetinə çevrilən siyasi plüralizmin bərqərar olmasında QHT sektorunun böyük rolu və fəaliyyəti oldu.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1.Место неправительственных организации в международном праве и ООН // Евразийский юридический журнал. №1 (20) 2010. с.23-28

2. Сравнительный анализ процессов формирования общественных организаций // «Гилея» выпуск 67 (№12). Киев. с.777-781

3. NGOS in Azerbaijani Legislation as İnstitutions. Publication // The international journal of Not-tor-Protit Law. 13 issue 4 december 2011. p.1-4

4. Azərbaycanda QHT sektorunun inkişaf mərhələləri// "Azərbaycan QHT sektoru Dövlət müstəqilliyinin 20 ilində", Bakı, 2011, Avrasiya-Press, səh. 16-20

5. Müasir Azərbaycanda QHT-lərin təkmilləşdirilməsi prosesinə baxış // "Heydər Əliyev irsi və müasir Azərbaycanın inkişaf siyasəti.



Ümumrespublika elmi-praktiki kofransın materialları, Bakı, 2012, AMİ, səh.206-211

6. Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası ötən 5 il ərzində // "Vətəndaş cəmiyyəti" jurnalının buraxılışı, Bakı, QHT nəşriyyatı, 2013, səh.3

7. Azərbaycanda plüralist cəmiyyətin formalaşma prosesi// Odlar Yurdu Universitetinin Elmi və pedaqoji xəbərləri N35. çap edilib.

8. Müasir Azərbaycanda qeyri-hökumət təşkilatları:plüralist inkişaf dinamikası // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, Bakı, Dirçəliş xxı əsr s.343-349 .

9. Heydər Əliyev və Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu prosesi // Heydər Əliyev və Azərbaycan. "Azərbaycan" nəşriyyatı, 2008, 0,5 ç.v.

10. Vətəndaş cəmiyyəti quruculuğunun yeni mərhələsi// Heydər Əliyev ideyaları XXI əsrdə: Azərbaycanın inkişaf yolu. Azərbaycan nəşriyyatı, 2008, 0,5 ç.v.

11. Vətəndaş cəmiyyəti münasibətlərinə müqayisəli baxış// BDU, Beynəlxalq münasibətlər kafedrası. Elmi əsərləri. 0,5 ç.v. çapdadır.

**Кулиев Азай Аждар оглы**

## Место неправительственных организаций в общественно-политической системе: национальный и международный опыт

### Резюме

Данная диссертация, состоящая из введения, трех глав, девяти параграфов, заключения и списка использованной литературы, посвящена исследованию места и роли института НПО в общественно-политической системе на примере опыт Азербайджанской Республики, некоторых других стран, а также на основе издания международных опыта в этой сфере. Автор показывает, что люди посредством структур НПО получают возможности более быстрого влияния на политическую систему на любом уровне. Горизонтальная динамика данного условия расценивается не только как фактор повышающий демократию, но и одновременно и как положительные качества в социально-культурной и повседневной жизни людей. Институт НПО исследуется как один из важных активных элементов в построении и взаимодействии современной политической системы. Сравнительно анализируется и рассматривается история появления общественных организаций, исследуются теоретическ-политические аспекты рассматриваемых проблем.

Помимо того всесторонне в работе исследуется целенаправленный политический курс, Общенационального Лидера Гейдара Алиева по развитию НПО в Азербайджане. Анализируются особенности развития общественного сектора современного азербайджанского общества за последние годы. Доказывается политическая линия, ведущая к самоорганизации общества, углублению общественных институтов и их упрочнению, незыблемости и необратимости упомянутого процесса в будущем. Данный путь, включая комплекс переходных процессов между политической системой и обществом, исследуется как наиболее выгодное и перспективное условие.

В исследовании обосновывается успешное, осуществление в Азербайджане последовательного демократического курса является началом процессов имеющих большое положительное значение не только для нашей страны, но и для региона. Вместе с тем большая поддержка развитию гражданского общества, оказываемая Президентом страны Ильхамом Алиевым, расценивается как особенно важный фактор становления в Азербайджане современного демократического общества.



**Guliyev Azay Ajdar**

## The place of NGOs in socio-political system: national and international experience

### Summary

The dissertation consists of introduction, three chapters, conclusion and the list of references. It investigates the place and the role of NGO as an institution in the process of civil society building. The research characterizes volunteer initiatives and institutionalized activities of humans as the most real and desirable social-political environment they want to build for themselves. It also proves that humans can have more flexible impact on political system at any level through NGOs. The horizontal dynamics of this environment has been substantiated as the factor which enhances democracy as well as increases positive qualities of humans` socio-cultural and daily way of life. The dissertation considers NGOs as one of important factors in building contemporary political activity and its coordination. The history of building social institutions has been explored comparatively and some theoretical aspects of the issue have been investigated using historical method.

The dissertation considers the role of Heydar Aliyev`s activities and his political course regarding development of NGOs in Azerbaijan. It also analyzes some specific features of the development of public sector in the contemporary Azerbaijan society.

Institutionalizing of society, deepening of its public institutionalization and its further consolidation has been proved as the political line leading to sustainability and even irreversibility of this process. This line has been analyzed as more favorable and perspective precondition to join complex transition processes between political system and society. The research proves that building sustainable democratic political line is the beginning of big processes of creating positive environment both for our country and for the region. At the same time, the great support extended by President Ilham Aliyev to developing civil society has been proved as the very important factor in building modern democratic society.

**AMEA-nın mətbəəsində çap olunub**
**Tiraj-100**

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ
ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**КУЛИЕВ АЗАЙ АЖДАР ОГЛЫ**

# МЕСТО НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ СИСТЕМЕ: НАЦИОНАЛЬНЫЙ И МЕЖДУНАРОДНЫЙ ОПЫТ

**Специальность: 5904.01- «Политические институты и системы»**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по политическим наукам**

**Баку- 2013**